

■ Mixail Sinelnikov

## AZƏRBAYCAN

Dağların boğazında gurlayır qəhqəhələr
Sis içindədir hər yan
Ruhunda bir böyük davul kükrəməsi var,
Azərbaycan!

Şəffaf su axışında bir çakıl daşısan sən,
Ya da möhtəşəm meşə.
Toy elə sevənlərə yenə canı könüldən
Saysız borularınla durub üzü günəşə.

## ODLAR ÖLKƏSİ

*Məmməd İsmayıl üçün*

Orda ki, sinilərdə alov servis edilir,
Taclandırır məclisi evə gələn işığı.
İstiqanlı insanlar görüb hiss edə bilir
Neft ruhunun öfkəli altın qəlb atışını.

Arasan hər diyarın başqa adətləri var,
Kişilər əyri gözlə görülmüylrəsə əgər
Gah səmimi, gah da ki, parlaq, yanar işıqlar
Axşamdan sabahadək coşan məclisi süslər.

Orda ki, qadınların gücü ölçüyə gəlməz,
Onlara bu həyatın özü desək yeridir
Heç bitib tükənməyən alov kimi bir həvəs
Sevgiləri uğruna həyatını əritir

Yanan güclü həyatda bir atəş çəmbəri var
Gözəllikmi deyirsən sonunda bu gözəllik
Bəzən zərif utanqaç, bəzən isə amansız
Odlu çiçəklər kimi ətrafa işıq saçar.

## ƏSKİ DAŞKƏNT

Əski Daşkənt, kül içində bəyaz saçları
Nəsibini aramada qoxumuş küldən.
Suya qoşar qoşun-qoşun qələbəliklər
Göylər sisli, gülən yoxdu burda könüldən

Uçuq-sökük durumdadır yemək yerləri
Büyülü bir məkan olmuş boşalmış şəhər.
Uzaq-uzaq qədim, daşlı tarixdən gəlib
Gücü yetən orda-burda kabab bişirər.

Bir-birinə qarışmışdır həyat və çamur
Baştan-başa bu üubarək tıxanıqlığın
İncə tozlar uçuşmada neft işığında,
Və əriyib yox olmada üzlər bir yığın.

Nə var itib yox olmada bulud içində
Sürücü də, rəis də eynidir burda.
Və serjant da partlayacaq bir şey arayır
Dəymiş soyuq səfalətin nəfsi bu yurda.

Başlamada duyğuların soyuq dönəmi
Vida anı uşaqların ruhu öfkəli
Burda yoxdur Yunanlar da,Yəhudilər də
O yerdən ki, uzaqlardan dəf səsi gəlir.

Tutqun üzlər bircə anda diksinir səsdən
Şərqilərin iniltisi duyulur sistə.
Qol-qola rəqs etmədədir çılğın cavanlar
Bildirçinin ritmi vardır bu sərzəniştə!

Ətrafında gül dənizi heyrət edərsən
Əriklərmi çiçək açan belə bir gündə?
Axmatova, ya işıqmı kölgədən keçən
İmperyanın tozumu var küllər içində?

* * *

Saçların sarışın, paltarın yaşıl
Geyinib süsləndin pək işıl-işıl.
Nadir gözəlliyin ruhun dənizi
Bəyazmı, pəmbəmi xoş hər ikisi.
Mavimi baharın ilk sərxoşluğu
Yaz istilərinin könül xoşluğu.
Buludlar tutduysa üzünü göyün,
Siyah paltarını o zaman geyin.

Burax, şuxluğuna bayılsın qızlar
Qamaşmış baxışla, açıq ağızla

## ÇAY

Ovub azman dağları
Sən də viraja girdin
Bu nəmli torpaqları
Uzaqlardan gətirdin

Su belə nəfəs alır
Ruhun qəlbimə damır
Bu aylar, bu fəsillər
Səndə axan dalğamı?

Önəmli deyil nəsən
Və haradan gəlirsən
Mən kim, bu möcüzə nə
Mən yox, tək sən bilirsən.

## KONYA

Qədim Konyada dərvişlər səmaya durmuşlar
Bax, İslamda ilhamını Qurandan alan
Yeni rənglər, yasalar var
Hünkardakı hikmət və neydəki əsrar.

Madəm ki, uca gerçəklər
Cavanmərdlik və kəramətlər az
Sən də gülərək bir pula sat bu dünyanı
Zira bu can, dəriyə və qabığa sığmaz.

Bax dinlə, nəvadakı bütün təkləri dinlə
Bu musiqidir, eşqdir, savaşdır bu
Haydı rəqs et dostum, kənara çəkilmə
Ruhları qaynaşdıran atəşdir bu.

## TÜRK DİLİ

Bu savaşçı Türklərin dilləri necə həzin
Qızğın atəş də olsa, o yenə də dadlıdır
Küləklər kimi xəfif, gül suyu kimi lətif
Nəğmə kimi avazı quş kimi qanadlıdır.

Sehirli hərəmlərin üzücü əsirləri.
Bəlirsizcə yumşamış köçəri lisanında
Ya da, uşaqlığında yeniçəri kəlməsini
Xatırlayıb oxumuş, duyğu coşmuş qanında

**Tərcümə edən:**
**Məmməd İsmayıl**

## UZAQDAN...

Yolum o səmtlərə düşməsə belə,
Otursam da evdə başıaşağı,
Uzaqdan xəyaltək görünür hələ
Qarlı zirvələrin gümüş işığı.

Təbiət sehriylə düşübdü bəndə
Sarı təpələrin sarsılmaz səfi;
Azacaq qızarır dan sökürəndə,
Od tutub-alışır axşamtərəfi.

O saman qalası, o bozca qala!
Hələ də dayanıb qulağı səsdə,
Hardakı qaranlıq gərmişdi qanad
Uşaqlıq çağımın başının üstə...

## MƏLƏK

Gənclik yadigarım
qəribə şəhər
Nilufər çiçəyi rəngdi
bu səhər...

Dolaşır evləri
Günəşin teli,
Kölgələrlə dolur
Kürün sahili.

Kilsə qüllələri
alışıb yanır,
Bir mələk, səmadan
mənə boylanır;

Şəfəqlər içində
sarır qəlbimi
Keçmişdən süzülən
təbəssüm kimi...

## QOCALIQ

Anladım ki, qocalıq - ötən illər deyilmiş,
Qalaq-qalaq həsrəti, dərdiymiş gedənlərin;
Ruhları uzaqlaşıb göy üzünə çəkilmiş,
Baxışları seyr edir bizləri, dərin-dərin...

O görünməz gözlərdə elə bir cazibə var
Vücuduna hopunca titrəyirsən, əsirsən.
Vidalaşmaq yerinə, unutmaqdan zamanla,
Var gücünlə, onlarla görüşə tələsirsən...

## KRIM

Yenə də əvvəlki etibarında,
Nur kimi könlümə dolanım mənim!
Hamıya doğmasan yay aylarında,
Qış vaxtı tək-tənha qalanım mənim!

Məlhəmtək şəfalı sıra dağların...
Buludlar toplanır başına hərdən.
O gözəgörünməz könül bağları
Sanki keçib gəlir qərinələrdən...

## KÖHNƏ ŞƏKİLLƏR

Şəkillər zamana bir körpü salar,
(Baxarsan, dünyadan kimlər gediblər...)
Bizlərdən nə qədər fərqlidir onlar -
Zamanla saralmış daqerrotiplər...

Ruhu doğma gələr yaxın keçmişin,
Kimisə kiməsə bənzər görərsən.
Bu gəliş-gedişlər dünyanın işi!
Sənsə qəribsəyib köks ötürərsən...

Eyni cizgilərlə bambaşqa insan!
Sanarsan, tapmısan sən öz yarını.
Heyif ki, geriyə qaytarmaz zaman
Qara çərçivəyə saldıqlarını!

## VƏTƏN

Qocalaydım, gələydim
İsti qucağına mən.
Susayıb sığınaydım
Bir dost ocağına mən.

İçib buz kimi sudan
Bir də “oxxay” deyəydim.
Çinəsarı yol alan
Quşlara əl edəydim.

Səni məhbəs bilirdi,
Bir vaxtlar ata-anam.
Amma mən öz xoşumla
Sənə əsir olaram!

Göyüzün örpək kimi
Saçlarının bəzəyi:
Bəzən dəniz mavili,
Bəzən də firuzəyi...

**Tərcümə edən:**
**Afaq Şıxlı**